**Azərbaycan Respublikasının Nizami Gəncəvi adına**
**Qızıl medalı ilə təltif etmək üçün**

# QAYDALAR

1. Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı Azərbaycan Respublikasının 2014-cü il 16 may tarixli Qanunu ilə təsis edilmişdir.
2. Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanın 2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı (bundan sonra – Nizami Gəncəvi adına Qızıl medal) ilə təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir.
3. Nizami Gəncəvi adına Qızıl medalla Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə təltif edilirlər.
4. Nizami Gəncəvi adına Qızıl medal Azərbaycan Milli Elmlər Akademiyasının təltif etdiyi ən yüksək mükafatıdır.
5. Nizami Gəncəvi adına Qızıl medala namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi-tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.
6. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən dövlət mükafatlarına və digər adlı dövlət mükafatlarına layiq görülmüş işlərin müəllifləri həmin işlərə görə Nizami Gəncəvi adına Qızıl medala namizəd kimi irəli sürülə bilməzlər.
7. Nizami Gəncəvi adına Qızıl medala namizədlərin irəli sürülməsi haqqında bütün təkliflər AMEA prezidentinin 31 mart 2014-cü il 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim edilir.
8. Ekspert Komissiyası irəli sürülmüş namizədlər sırasından gizli səsvermə yolu ilə Nizami Gəncəvi adına Qızıl medala namizədi seçir və namizəd haqqında müvafiq rəyini AMEA-nın Rəyasət Heyətinə təqdim edir.
9. Ekspert Komissiyasının iclasında komissiya üzvlərinin ən azı 2/3 hissəsi iştirak etdikdə, həmin iclas səlahiyyətli hesab olunur. Səsvermədə iştirak edənlərin ən azı 2/3 hissəsi namizədin lehinə səs verdiyi halda, Ekspert Komissiyasının qərarı qəbul olunmuş hesab edilir.
10. Namizədin Nizami Gəncəvi adına Qızıl medalla təltif edilməsi barədə qərar AMEA-nın Rəyasət Heyəti tərəfindən qəbul edilir.
11. Nizami Gəncəvi adına Qızıl medal və onun diplomu AMEA-nın Ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti tərəfindən təqdim olunur.
12. Nizami Gəncəvi adına Qızıl medalla təltif olunmuş şəxs haqqında məlumat AMEA-nın elmi jurnalında və mətbu orqanında dərc edilir.
13. Nizami Gəncəvi adına Qızıl medalla bir şəxs təkrar təltif edilmir.
14. Vəfat etmiş şəxs Nizami Gəncəvi adına Qızıl medalla təltif edilmir.